# Onun haqqında dediklərim tərif deyil, həqiqətdir

## Sabir Rüstəmxanlının həyat yoldaşı Tənzilə xanımla müsahibə

**- İlk dəfə gördüyünüz Sabir Rüstəmxanlı ilə indiki - yaxşı tanıdığınız Sabir bəy arasında hansı dəyişiklikləri müşahidə edirsiniz və ya o, nələrdə hələ də sabitqədəmdir?**

- Əlbəttə ki, illər bir çox şeyləri dəyişdirdiyi kimi, insanlardan bəzi özəllikləri alır. O cümlədən də, şairlərdən. Yaşın üstünə yaş gəldikcə, adi insan da, şair də hadisələrə daha geniş rakursdan baxmağa başlayır. Sabir bəyin ömrünün böyük bir hissəsi gözlərim önündə keçib. İllərin ondan nələr aldığını və ona nələr verdiyini məndən yaxşı heç kim bilməz. Sabit qalan, əlbəttə ki, Sabir bəyin ruhudur, millət, vətən sevgisidir. Həmçinin keçdiyi yoldur ki, heç vaxt o yoldan sapmadı. O, bu ana xətti yaşamında da, yaradıcılığında da davam etdirirdi. Bəlkə də Sabir bəy hansısa hadisələrə 25-30 il əvvəlki kimi baxmır. Bəzən dostları ona irad tuturlar ki, nəyə görə müəyyən hadisələrə radikal, müxalif mövqedən yanaşmır. Onsuz da yazarlar, şairlər bütün dövrlərdə müxalif olublar. Onlar müstəqildir və hər zaman ədalətsizliyə qarşı mübarizə aparırlar.

Bilirsiniz, Sabir müəllimin "Ömür kitabı" hələ Azadlıq hərəkatı başlamamışdan əvvəl çap olunmuşdu. Bu barədə danışanda həmişə dostlarına deyir ki, mən o vaxt müstəqilliyimiz uğrunda mübarizə aparırdım, Azərbaycanın azadlığı üçün vuruşurdum. İndi artıq azad, müstəqil dövlətimiz var. Amma indi kimə qarşı mübarizə aparmalıyıq? Dövlətimiz gəncdir və 1918-ci ildə qurulan Cümhuriyyətimizin varisidir. Amma o dövləti yaşatmadılar. Bu dövlətimizin də o qədər ciddi problemləri var ki... Sağı-solu düşməndir, iyirmi faizdən çox ərazisi düşmən tapdağı altındadır, dünyanın Qarabağ məsələsinə biganə, ikibaşlı münasibəti göz önündədir, Azərbaycanın taleyi ilə bağlı beynəlxalq qurumların fəaliyyəti bizə məlumdur, hansı ki, ərazimiz olan Dağlıq Qarabağa İrəvandan gedirlər. Bakıdan getmələri lazımdır. Belə həmsədrlər birtərəfli mövqe ortaya qoyurlar. Bütün bunları Sabir müəllim zaman-zaman öz yazılarında, müsahibələrində deyib. Bu da mübarizənin bir yoludur. Biz bu gün ağır sınaqlardan keçirik. Atəşkəs olmasına baxmayaraq, şəhidlər veririk. O, həmişə deyir ki, səngərdə düşmənlə üz-üzə oturduğumuz vaxt, mən kimlə, niyə mübarizə aparım? Sabir bəyin bu dünyada bir dərdi var: Vətən dərdi... Onun bütün yaradıcılığının mahiyyətini milli kimlik, milli məfkurə ideyaları təşkil edir. Mənə elə gəlir ki, Sabir bəydə sabit qalan ideyadır, məfkurədir, getdiyi yoldur. O, Türk milli düşüncəsindən geri addım atacaq insan deyil. Doğru bildiyi yoldan heç vaxt çəkilməz. Ona görə də o vaxt Azadlıq hərəkatında onun "Ömür kitabı" meydanlara bayraq kimi gətirilirdi, o kitabı analar qızlarına cehiz verirdilər. Çünki o, milli oyanış dastanı, milli özünüdərk manifestidir. Sabir Rüstəmxanlı Azərbaycanlı oxuculara o kitabla bir millət olmanın qürurunu yaşadırdı. Təbii ki, mənim üçün də çox əhəmiyyətli bir əsərdir. Bilirəm ki, Sabir müəllim böyük fikir adamıdır. O cür adamlar ələ silah alıb, gedib cəbhədə vuruşmur. Bizim millət bəzən şairdən, yazıçıdan çox şey tələb edir. Deyirlər, həm gözünün nurunu verib bu millətin tarixini, ədəbiyyatını yazmalısan, həm qəlib meydanlarda bizim siyasi oyunlarımıza ortaq olub, siyasi rəqabətlərimizə qoşulmalısan, həm də qiyninə silah alıb gedib cəbhədə vuruşmalısan. Bu kimi məsələlərdə ziyalılarımızı çox yükləyirik. Əlbəttə ki, söhbət gerçək ziyalılarımızdan, aydınlarımızdan gedir.

**- Sabir müəllim meydanlarda olub. Təbii ki, qadınlarda həmişə bir ehtiyat hissi olur. Şairlə bağlı narahatlığınızdan danışın zəhmət olmasa.**

- Doğrudur, ona görə həmişə narahat olmuşam, başına bir iş gələcəyindən ehtiyatlanmışam. Sabir bəy dəfələrlə təhlükəli hadisələrin mərkəzində olub. Bir dəfə, ölkəmiz hələ müstəqillik qazanmamışdı, onun başını yarmışdılar. Bu hadisədən sonra onda beyindaxili təzyiq əmələ gəldi, o günlərin ağrısını indi də yaşayır. Sabir bəy bütövlük şairidir, Azərbaycanın ikiyə bölündüyünün, torpaqlarımızın paramparça olduğunun mahiyyətini dərk etmiş və onun uğrunda mübarizə aparmış biridir. Güneyli qardaşlarımızın səsini duyurmaq üçün illərdir yazısı, qələmi ilə mübarizə aparan insandır. Bir neçə il əvvəl Nardaranda fitva vermişdilər ki, Sabir bəy öldürülsün. O vaxt dövlətimiz işə əl qoydu, xüsusi qoruyucular göndərildi. Təhdid edənlər də məsuliyyətə cəlb olundu. Belə hadisələr təbii ki, narahatlıq yaradır. Bu hadisədən sonra qızım çox qorxmuşdu. Atası evə saat 7-dən gec gələndə hiss edirdim ki, çox narahatdır. Biz bəzən ziyalılarımızın müxtəlif terror qruplaşmaları tərəfindən aradan götürüldüyünün şahidi olmuşuq. Təbii ki, bütün bunlar müəyyən narahatlıq doğurur. Amma inanıram ki, İlahi bir qüvvə Sabir bəyi qoruyur.

**- Orxan Kamalın oğlu İşıq Öğütçü ilə müsahibə alanda soruşdum ki, atanız tez-tez həbs olunurdu, ananız demirdi ki, bu yoldan çəkil, daha biz sənin yolunu gözləməkdən yorulmuşuq? O mənə belə cavab verdi ki, bizim ailəmizin qəhrəmanı anamız idi. Bilmək istəyirəm ki, bəs sizin ailənizin üzdə və arxada görünən qəhrəmanı kimdir?**

- Türkiyəlilərdə belə bir gözəl ifadə var, hər uğurlu kişinin arxasında bir uğurlu qadın dayanır. Mən qətiyyən bu fikri özümə şamil etmirəm, çünki Sabir Rüstəmxanlı çox böyük adamdır. Mənim gözümdə böyük bir ziyalıdır. O, mənim həyat yoldaşım olmasa da, bu sözləri deyərdim. Milli azadlıq ruhumuzun yaranmasında əhəmiyyətli rol oynayan insanlardandır. Bəzən bunu danmaq istəsələr də fakt faktlığında qalır. Gerçəyin üstünü toz basa bilər, amma o heç vaxt itməz. Nə olsun ki, müşfiqlər güllələndi, cavidlər Sibirə sürgün edildi, kitabları qadağan olundu, yandırıldı, amma Heydər Əliyev kimi möhtəşəm dövlət adamı, milli dəyərləri önəm verən siyasi şəxsiyyət bütün bu haqsızlıqlara son qoydu. Hüseyn Cavidin cənazəsinin qalıqlarını vətəninə gətirdi, məqbərəsini ucaltdı. Xatirəsi əbədiləşdirdi. Yəni, yazıçılar, şairlər seçilmiş adamlardır və onların yanında da mütləq güclü bir qadın dayanmalıdır. Amma bəzən elə olur ki, belə fikir adamlarının ailədəki taleləri başqa cür olur. Təkcə Tolstoyu xatırlamaq kifayət edir. Ona görə də şair və yazarların xanımları çox böyük səbir sahibi olmalıdırlar. Bir çox çətinlikləri hiss etdirmədən sinəyə çəkməlidirlər. Bəzən şair nəyisə unuda bilər, amma xanımı unutmamalıdır. Səbirli olmalıdırlar. Çünki həyat yoldaşları qeyri-adi insanlardır. Bəzən ola bilər ki, yazar öz xanımına görüş təyin edib, sonra unuda bilər. Belə bir hadisə mənim başıma gəlib. Sabir müəllim iki saat məni küçədə gözlədib (gülür). Belə olanda əsəbiləşmək yox, sadəcə, bunu onun şairliyinə qurban vermək lazımdır. Çünki onların beyinləri ancaq bir qadını düşünəcək qədər dar deyil. Həmçinin belə adamları məişət qayğılarından da uzaq tutmaq lazımdır. Mən neçə ildir belə edirəm, çünki başa düşürəm ki, onun yaradıcılığı, başqa işləri var. Çox şükür ki, övladlarımız da bu məsələlərdə diqqətlidirlər. Əslində, bizim evimizin qəhrəmanı Sabir bəydir. Çünki biz görünsək də, görünməməyə çalışmışıq. Evimizdə də, həyatımızda da hər şey Sabir bəyin zövqünə uyğun qurulub. Məsələn, biz gedib şairin kitabxanasından icazəsiz kitab götürə bilmərik və ya mən onun yazı masasının tozunu özü evdə olmadan ala bilmərəm. Çünki o masada bir kağızın yeri dəyişsə qiyamət qopar. Şairin istəkləri birinci yerdədir. Ona görə evimizin də, həyatımızın da qəhrəmanı odur.

Məfkurə sahiblərinin, fikir adamlarının həyat yoldaşları onları anlamasa, hər iki tərəfə çətin olar. Övladlarıma da bu fikri aşılamışam. Türkiyəlilərin yaxşı bir sözü var, qadın istəsə kişini rəzil də edər, vəzir də. Mən Sabir bəyi anlamasam, həyat yolunu dərk etməsəm yaşamında da rahatlıq yarada bilmərəm. Bilirəm ki, o, bu millətin bir dəyəridir. Əgər millətimi sevirəmsə, onun üçün yaşayıb-yaradan şairi başa düşməliyəm. Sabir bəy sevdiyi işlə məşğuldur. Onu çox sevdiyimə görə, yolu da mənə əzizdir. Ümumiyyətlə, sevdiklərimə görə özümü fəda edən insanam. Məsələn, Sabir bəy hər dəfə kitabı çıxanda bunu ələ sevinclə qarşılayır ki. Sözün əsl mənasında, gözü dolusu baxır kitabına. Halbuki, 45-dən çox kitabın müəllifidir. Onun sevinci məni də sevindirir.

**- Xatirələrinizin birində belə bir fikir bölüşürsünüz ki, Sabir müəllimlə qızımız Aydan 11-ci sinifdə oxuyanda deyirdik ki, imtahana yaxşı hazırlaş, universitetə qəbul olmasan, bu, bizə yaraşmaz. Həm də Sabir bəy deyirmiş ki, mən səndən ötrü heç bir namərdin qapısına gedən deyiləm. Universitetə hazırlaşan və həm də ailə məsuliyyətini dərk edən qızınız bir dəfə sinif otağında ağlayıb. Müəlliməsi göz yaşlarının səbəbini soruşanda "Rüstəmxanlı soyadını daşıya bilmirəm" cavabını verib. Bəs sizin "Rüstəmxanlı" soyadının altında əzildiyiniz, çiyninizin tab gətirmədiyini hiss etdiyiniz vaxtlar olubmu?**

- Görünür, mən bu cür məsələlərdə övladlarımı həddindən artıq yükləmişəm. Arada onlara rahatlıq, müstəqillik vermək lazımdır. Məsələn, qızıma hər gün evdən çıxanda demişəm ki, Sabir Rüstəmxanlının qızı olduğunu unutma! Oturuşunu, duruşunu, oxumağını bu məsuliyyətə hesablamalısan. Hə, qızımız Aydan onda xırda bir nöqsanı olanda da, danlanırdı. Və bir dəfə demişdi ki, artıq mənim çiyinlərim bu yükə dözmür. Amma indi çiyinləri o qədər möhkəmlənib ki, bu soyadı çox ləyaqətlə daşıyır və qürur duyur. Məndə də belə hallar çox olub. Bilirsiniz ailə başçısı hədəf taxtasında olanda ilk olaraq onun qadını, qızı tərəfdən vurmaq istəyirlər. Çox vaxt Sabir bəyə hücum edənlər öz çirkablarını bizim ölkədə olmayanda kitabxanasını səliqəyə salırdıq. Sovetin vaxtından qalma bir çamadanımız var idi. Baxdım ki, içi sevgi məktubları ilə doludur. Özündən icazəsiz də olsa, oxuyub gördüm ki, bəziləri sənət əsəri sayılacaq dərəcədə gözəldir. Sabir müəllimə 30 il əvvəl yazılmış sevgi məktubunun içində mən həm də istedadlı bir yazar gördüm. Qərara gəldim ki, belə bir kitabı çap etdirib Sabir müəllimin ad günündə ona hədiyyə edim. Bəlkə də Azərbaycanda bunu heç kim etməyib. Sabir müəllimin 55 illik yubileyində kitabı ona hədiyyə etdim. Bunu ona görə etdim ki, bilinsin yazıçının, şairin belə bir ömrü də var və Sabir bəy hər şeyi ilə bizə əzizdir.

**- O məktubların arasında elə-si var idimi, oxuyanda hiss etdiniz ki, Sabir Rüstəmxanlını sizdən daha çox seviblər? (gülürük)**

- Bəli, Fərid bəy, biri var idi (gülür). O qədər gözəl yazılmışdı ki, o məktub. Hətta birini oxuyanda ağlamışdım. Çox savadlı bir xanım tərəfindən yazılmışdı və mən orda şairə çox böyük sevgi gördüm. Belə şeylər məni duyğulandırır. O xanımlara mənim həyat yoldaşımı bu cür sevdiklərinə görə, hər zaman hörmət bəsləyirəm. Bu hörmət də onları tərksilah edir, başqa yola gedə bilmirlər (gülür). Sabir bəy deyir ki, sən onların hamısını tanıyırsan və rəfiqə olursan. Düz deyir, onu kim sevirsə sonradan hamısı mənim rəfiqələrim olur.

**- O kitabı çap etdirmək bir qadın kimi sizin böyüklüyünüzdən xəbər verir. Maraqlıdır ki, sizi bu böyüklüyə Sabir Rüstəmxanlı çatdırıb?**

- Mən Sabir müəllimdən çox şeylər öyrənmişəm. O, mənim müəllimimdir. Onun kimi bir insandan nəsə öyrənməmək cahillikdir. Amma gərək adamın öz qabında da nəsə olsun. Görünür, mən də istedadlı adam olmuşam ki, o cür yaradıcı insanla bütün çətinlikləri birgə adlamışıq. Sabir müəllim mənim ən yaxşı müəllimimdir, türkiyəlilər demiş, əli öpüləcək adamdır.

**- Sabir müəllim təriflərdən qaçan, bəzi məqamlarda üzünü turşudan adamdır. Amma siz müsahibənizdə daim onun haqqında xoş fikirlər səsləndirirsiniz. Maraqlıdır ki, müsahibələrdən sonra "qan çanağı"na döndüyü, "belə şeylərə ehtiyac yoxdur" deməyi olurmu?**

- Çox dəqiq müşahidə etmisiniz. Hirslənir ki, məni çox tərifləmisən. Gərək belə sözlər deməyəydin. Eləmə belə şeylər (gülür). Əslində, haqqında çox söz deyə bilərik, özü imkan vermir. Amma bəzi məsələlər var ki, onu ancaq mən deməliyəm. Başqası onu mənim qədər tanıya bilməz. Deyirəm ki, millətin hafizəsinin güclü olmasına çox da inanma. Çünki mən gənclərlə ünsiyyətdə oluram, görürəm ki, çox az oxuyurlar. Hətta bəziləri əlinə kitab almır. Bu millət on il əvvəl baş vermiş hadisələri çox tez unudur. Unutmamaqları üçün gərək Sabir bəyin fəaliyyətini yeri düşəndə xatırladaq. Onun haqqında dediklərim tərif deyil, həqiqətdir.

**- Sabir müəllim cəsarətli çıxışları ilə yadda qalır. Maraqlıdır ki, ailədə də belədir?**

- Əlbəttə, ailədə də elədir. Ümumiyyətlə, onun ən böyük düşməni yalandır. Haqsızlığa səbri yoxdur. Ona görə də cəmiyyətdə necədirsə, ailədə də elədir. Sabir bəyin mənim üçün ən yüksək keyfiyyəti yaradıcılığı ilə şəxsiyyətinin, millətə münasibəti ilə ailəyə münasibətinin, ümumiyyətlə isə qəlbindəki ilə dilindəkinin üst-üstə düşməsidir.

**- Sabir Rüstəmxanlıya hansısa məqamda qiymət verilmədiyinin şahidi olmusunuz?**

- Belə məqamlar çox olub. Amma əsl qiymət bir-iki məqamla ölçülmür. Sabir bəy bu millətdən də, dövlətdən də dəyərini yetərincə almış adamdır. O, hər yerdə, hər zaman yüksək səviyyədə qarşılanıb. Onun dəyərləndirildiyi ən böyük məqam Xalq şair olmasıdır. Bundan böyük qiymət yoxdur, bu yüksəklik yetərlidir. Xalqın şairi, sevimlisidir o.

**- Deyirlər, yaxşı müəllimlər həm də tələbələrindən öyrənirlər - "öyrədərək öyrənmək" münasibəti deyək. Sabir bəyi müəlliminiz hesab etdiyinizə görə soruşuram, bəs o sizdən nələr öyrənib?**

- Məncə, heç bir şey. Amma yenə də bu sualın cavabını Sabir bəydən soruşmaq lazımdır.

**- Sabir müəllimin hansı insani və yaradıcı keyfiyyətlərinin izlərini övladlarında müşahidə edirsiniz?**

- Sabir bəyə ən çox oxşayan qızlarıdır. Həmişə deyirəm ki, Sabir Rüstəmxanlı bu baxımdan şanslıdır. Çünki bu iki qız atalarına aşiqdir. İkisi də atalarının yaradıcılığını əzbər bilir. Amma xarakterə ən çox böyük qızı ona oxşayır. Məsələn, Nərgizin çox gözəl yazmaq qabiliyyəti var. Aydan da ondan geri qalmır. Nərgizin nəsr qələmi çox güclüdür, Aydanda şeir gözəl alınır. Allaha həmişə şükür edirəm ki, övladlarımız bizi utandırmadılar. Soruşsanız ki, Sabir bəyin mənəvi varisi kimdir, deyərəm iki qızıdır.

**- Bəs onların ədəbi gündəmdə olmamaqlarının səbəbi nədir?**

- Aydan bir neçə dəfə yazdıqlarını atasına oxuyub. Həmişə deyirəm ki, yazdıqlarınızı bir də oxuyub, yaxşılarını seçin. Gələcəkdə çap etdirin. Çünki bu istedad sizdə var. Görünür, onlar Sabir Rüstəmxanlının adının, ədəbi imzasının ağırlığından çəkinirlər. Sabir bəy çox sərt tənqidçi və oxucudur. Bəyənmədiyi şeyin üstündən xətt çəkib deyər ki, bizi biabır eləmə. Amma özü də hər ikisinin istədadını etiraf edir.

**- Mikayıl Mirzə bu şairləri "Üç muşketyor" adlandırıbmış: Çingiz Əlioğlu, Sabir Rüstəmxanlı və Nüsrət Kəsəmənli. Amma illər sonra onların arasında soyuqluq yarananda bu, rəfiqələrin - şairlərin xanımlarının da münasibətinə təsir etdimi?**

- Onlar gənclikdən dost olublar. Amma bəzən olmayanda olmur. Sabir müəllimin də bəxtinə çox vaxt yaxşı dostlar çıxmayıb. Rəhmətlik Nüsrət bəylə araları çox yaxşı idi. Sağlığında tez-tez görüşərdilər. Sabir bəy həmişə onunla maraqlanırdı. Çingiz bəylə də araları pis deyil. Nazir işləyəndə Çingiz Əlioğlu onun yanında işləyirdi. Çox nadir hallarda hər şey və hamı olduğu kimi qalır.

**- Sabir bəy səxavətli, bəzi məqamlarda "cibinin bərəkətini bilməyən", ehtiyacı olanlara kömək edən adamdır. Ədəbi mühitdə də onun etdikləri zaman-zaman xatırlanır. Xanımlar isə çox vədə "yadlara xərclənən" pulların haqq-hesabını çəkən olurlar. Siz necə, şairi əl qısmağa, lazımınca xərcləməyə çağırdığınız vaxtlar olubmu?**

- Bəli, o, həddindən artıq səxavətlidir. Xüsusən də, köməyə ehtiyacı olana axırıncı pulunu da verər və verib. Amma gəlin "xəsisliyi"ndən də danışaq. Deməli, Sabir bəyə doğum günündə çoxlu saat hədiyyə etmişdilər. Birindən xoşum gəldi, dedim ki, bəlkə elə bunu mən taxım, onsuz da kişi saatı olduğu bilinmir. Razılıq verdi. Altı aydan sonra mənim doğum günümdə dedi ki, bilirsən də, o saatı sənə bu günə görə hədiyyə etmişdim (gülür). Uşaqlara pul verəndə hesab-kitab eləyirdi. Bunu xəsislikdən etmir, sadəcə israfa alışmalarını istəmirdi. Əslində, bu çox yaxşı xüsusiyyətdir.

**- Başı həmişə qalda olan, həqiqəti deməkdən çəkinməyən Sabir bəyə hər hansı fikrində təsir etdiyiniz olubmu? Yəni nələrdənsə şairi sapındırmağa cəhd etmisiniz?**

- Əlbəttə, o həmişə ağıllı fikri qəbul eləyir. İçində qəribə bir hissi var, çox həssasdır. Sanki gözəgörünməz bir qüvvə onu bəzi təhlükələrdən qoruyur.

**- Sabir müəllim uzun illər vəzifə sahibi olub: Mətbuat və İnformasiya Naziri və 25 il millət vəkili. Son seçkilərdə namizədliyini vermədi, həmişə vəzifənin "gətir-götür"ünə öyrəşmiş biri üçün uzaqlaşmaq çətin olmadı ki?**

- Sabir bəy vəzifə sahibi olanda da sadə yaşayırdı. O nazir işləyəndə də biz sadə həyat tərzi sürmüşük, ona görə, indi də bunların olub-olmamağı ailədə narahatlıq doğurmur. Necə yaşamışıqsa, indi də yolumuza elə davam edirik. İkimizin də bir duamız olub: Allah, bizi namərdə möhtac etmə! Sabir bəy vəzifə vurğunu olmayıb, ancaq işini həmişə sevib, xalqa xidmət etməkdən daim zövq alıb. Bu gün də o xalqa xidmətdən, yazıb-yaratmaqdan yorulmur.

**Söhbətləşdi: Fərid Hüseyn**